

# Simax ŞEYDA

Azərbaycan uşaq ədəbiyyatının tanınmış simalarından biri, Azərbaycan və İsrail Yazarlar Birliyinin üzvü, şair-dramaturq Simax Şeyda uzun sürən xəstəlikdən sonra dünyasını dəyişib.

Simax Şeyda 1936-cı il iyunun 20-də Oğuz rayonunda anadan olub. 1940-cı ildə ailəliklə Gəncə şəhərinə köçüb. Azərbaycan Dövlət Universitetinin kitabxanaçılıq fakültəsində təhsilini davam etdirib.

Simax Şeyda əmək fəaliyyətinə Gəncə şəhəri Rayonlararası Xalq Yaradıcılığı Evində teatr və təsviri incəsənət üzrə metodist kimi başlayıb. Orada baş metodist və direktor olub. Bakıda Azərbaycan Teatr Cəmiyyətinin xalq teatrları kabinetinin müdiri (1965-1990) və "Azərteatr" Yaradıcılıq İstehsalat Birliyində redaktor vəzifəsində çalışıb.

Dağ yəhudisi olmasına baxmayaraq, Simax Şeyda həmişə Azərbaycan dilində yazıb, yaradıb. "Ədəbiyyat və incəsənət", "Azərbaycan pioneri", "Azərbaycan" qəzetlərində və "Göyərçin" jurnalı səhifələrində uşaq şeirləri, mənzum nağılları dərc olunub. Simax Şeyda uşaqların sevimli şairidir. Uşaqlar üçün qələmə aldığı beş mənzum pyes oxucular tərəfindən rəğbətlə qarşılanıb. Simax Şeydanın "Təyyarə", Mən balaca kosmanavtam", "Yaxşı qız", "Tülkü-tülkü- tünbəki", "Nəğməli meşə", son illər yazdığı "Kimin belə qızı var", Nağıl istəyən qız", "Yoxdur belə nənədən", "Qızım qızlar içində", "Topçu Həsən" və s. kitabları kütləvi tirajla nəşr olunub.

Azərbaycan klassik ədəbiyyatını dağ yəhudilərinin dilinə tərcümə edir və bütün dünyaya yayır. Onun tərcümələri Amerikada, Kanadada nəşr edilib. Nizami Gəncəvidən Əmirulla Gəncəviyədək 75 azərbaycanlı şairin şeirlərini dağ yəhudilərinin dilinə tərcümə edib, antologiya şəklində çap edib.

Uşaqlar üçün yazdığı şeirlərə bəstəkar Oqtay Zülfüqarov mahnılar yazıb. Bunlara "Təyyarə", "Mən balaca kosmonavtam" şeirlərini nümunə göstərmək olar.

16 iyul 2015-ci il Azərbaycan Respublikası Mədəniyyət nazirliyin "Fəxri mədəniyyət işçisi" döş nişanı ilə təltif edilmişdir.

13 fevral 2024-cü ildə Almaniyanın Münhen şəhərində vəfat edib.

Simax Şeydanın xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**